ədalət.- 2021.- 6 mart.- S.9.

*Gülər Eldarqızı*



## *Doğma ağac*

*İndi küçələr də qərib görünür,*
*O tanış yollarda izim qarışır.*
*Üşüyür parkdakı o tənha ağac,*
*Hər gəlib gedəndən bizi soruşur.*

*Neçə kürək çəkib özünə sarı,*
*Dərdi uda-uda hey yaşa dolub.*
*Küsüb-barışanın halına yanıb,*
*İsti öpüşlərin şahidi olub.*

*Bu ağac daha o ağac deyil ki,*
*Hər fəsil gözümdə ölüb, dirilir.*
*Sən demə, ürəklər qoşa yananda*
*Qurumuş budaq da gözəl görünür.*

*Yox olsun, küləklər qoparsın kökün,*
*Silinsin üstünə yazdığım ad da.*
*Elə sanaram ki xəyaldır ömrüm,*
*Gəlməyib dünyaya adam mən adda.*

*Bu gün həsrətimin doğum günüdür,*
*Yanına getməyə bəhanəm yoxdur.*
*O ağac mənim tək tənha deyil ki,*
*O ağac altında görüşən çoxdur.*

*İndi küçələr də qərib görünür,*
*O tanış yollarda izim qarışır.*
*Üşüyür parkdakı o doğma ağac,*
*Hər gəlib gedəndən bizi soruşur.*

## *NAĞIL ÖMÜR*

*Uşaq vaxtı qar yeyərdim, yağanda,*
*Uşaq qəlbim şadlanardı sevincdən.*
*Nə biləydim tale məni sıxanda*
*Könlüm olar bir yetim quş, sevinc dən.*

*Yadımdadır, üşüməzdim qışda da,*
*Bir hərarət duyulurdu hər üzdən.*
*İnsan uşaq olarmış qırx yaşda da,*
*Üşüyərmiş buz baxışdan, qar üzdən.*

*Qar adamı düzəldərdik həyətdə,*
*Gün çıxanda əridərdi "adamı".*
*İndi məni üşüdür bu həyat da,*
*Gün də vurmur könül adlı odamı.*

*Qar yağardı, budaqları əyərdi,*
*Deyərdilər bu hikmətdir, ağıldır.*
*Onda mənə nənəm nağıl deyərdi,*
*Artıq ömrüm başdan-başa nağıldır.*

*Nağıl ömrün bitməyinə az qalıb,*
*Taleyimə üç alma da düşəcək.*
*Payız ötüb, qış gəlibdir, yaz qalıb,*
*Son baharım üç almada düşəcək.*

*Uşaq vaxtı qar yeyərdim, yağanda,*
*Uşaq qəlbim şadlanardı sevincdən.*
*Nə biləydim tale məni sıxanda*
*Könlüm olar bir yetim quş, sevinc dən.*